**HÜQUQ MƏSƏLƏLƏRİ KOMİSSİYASI**

**TÜRKPA ÜZV ÖLKƏLƏRİNİN QANUNVERİCLİYİNİN UYĞUNLAŞDIRILMASINA DAİR FƏALİYYƏT**

**HESABATI**

## I. GİRİŞ

1. Hüquq məsələləri üzrə komissiya üçüncü toplantısının gündəliyinin əsas maddəsi olaraq TÜRKPA üzv ölkələrinin qanunvericiliyinin uğunlaşdırılması mövzusunu nəzərdən keçirməyi qərara almışdır. Assambleyanın əsas məqsədinin üzv dövlətlər arasında əlaqələrin inkişafı üçün qanunvericilik bazasının formalaşdırılması olduğunu nəzərə alsaq, bu məsələ Türk əməkdaşlığının parlament ölçüsü üçün böyük əhəmiyyət kəsb edir.

2. TÜRKPA inteqrasiya olunmuş qanunvericilik çərçivəsinə əsaslanaraq üzv ölkələr arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyətin inkişafı üçün səmərəli mexanizm olmaq niyyətindədir. İstanbul Sazişi Assambleyanın prioritet məsələlərinindən biri kimi üzv ölkələrin qanunvericiliklərinin uyğunlaşdırılmasını özündə əks etdirir.

3. Komissiya ilkin mərhələdə dörd ölkənin milli qanunvericiliklərinin strukturu və əsas prinsiplərini araşdırmış və müvafiq məlumat mübadiləsi aparılmışdır. Beləliklə Komissiyanın təklifi əsasında Türkdilli ölkələrin Konstitusiyalarının Azərbaycan, Qazax, Qırğız və Türk dillərində nəşrinə başlanılmışdır. Komissiyanın birinci və ikinci toplantıları zamanı üzv ölkələrin ali qanunvericilik organlarında parlamentarizmin rolu və nizamnamələri müzakirə olunmuşdur.

4. Hesabat 18 mart 2014-cü ildə İstanbul Universitetində keçirilmiş hüquqi ekspertlərin seminarının nətcələri və üzv ölkələrin müvafiq olaraq bu sahədə təcrübələrinə əaslanır. Seminarda ekspertlər üzv ölkələrin qanunvericiliklərinin uyğunlaşdırılması məsələsi üzərində müzakirələrə səmərəli cəhətdən töhvə vermək məqsədilə fikir və informasiya mübadiləsi aparmışdır. Seminar iştirakçıları perspektivdə model qanunların qəbul edilməsi ilə üzv ölkələrin qanunvericiliklərinin uyğunlaşdırıması prosesinə tədricən başlaya biləcəklərini razılaşdırmışdır.

5. Seminar iştirakçıları TÜRKPA-nın gələcək fəaliyyəti üçün möhkəm hüquqi əsas yaratmaq məqsədilə üsul və vasitələrin müəyyənləşdirilməsində real maraqlarını ifadə etmişdir. Bu kontekstdə, iştirakçılar Assambleyanın məqsəd və vəzifələrinə nail olması üçün üzv ölkələr arasında yaxın əməkdaşlığa yönəlmiş təcrübələrini təqdim etmişdir.

## II. Seminarın Xülasəsi

5. Seminarda TÜRKPA üzv ölkələrində qanunvericiliyin uyğunlaşdırılmasında ekspert potensialının vacibliyi vurğulanmış, iştirakçılar bu cür seminarların davamlı olması və üzv parlamentlərin qanunvericilik fəaliyyəti ilə bağlı əsaslı məlumat bazasının toplanması üzərində müəyyən işlərin həyata keçirilməsi nəticəsinə gəlmişdir.

6. Seminar iştirakçıları aşağıdakı məsələlərə diqqət yetirmişdir

- Türkiyənin Avropa İttifaqı ilə qanunvericiliyin uyğunlaşdırılması sahəsində mövcud təcrübəsindən və digər üzv ölkələrin MDB Parlamentlərarası Assambleyası ilə əməkdaşlığı çərçivəsində təcrübələrindən istifadənin əhəmiyyəti;

- TÜRKPA Komissiyalarının toplantılarından əvvəl model qanun layihələrinin hazırlanması və başqa qərarların qəbulu üçün ekspert toplantılarının və dəyirmi masaların təşkil edilməsinin vacibliyi;

- Müvafiq sahələrdə qanunvericiliyin harmonizasiyası üzrə təkliflərin hazırlanması üçün üzv dövlətlərinin parlamentlərinin ixtisaslaşmış komitələrinin görüşlərinin daimi əsasda keçirilməsinin faydası.

- TÜRKPA çərçivəsində qanunvericiliyin harmonizasiyası yalnız spesifik və ictimai fəaliyyətin geniş sahələrinin hüquqi normalarına təsir göstərmədən aparıa bilər;

- Qanunvericiliyin harmonizasiyası və model qanun layihələrinin qəbul olunmasına mədəniyyət, səhiyyə və ətraf mühitin mühafizəsi, korrupsiya, terrorizm, pulların yuyulması, hərbi qanunvericilik və digər xüsusi sahələrdə başlanması daha məqsədəuyğun hesab olunur. Bununla yanaşı, ticarət və investisiya sahəsində maneələrin müəyyən edilməsi və onların aradan qaldırılması yollarının axtarılmasına ehtiyac duyulur.

- Harmonizasiya prosesində hüquqi terminologiyanın xüsusi əhəmiyyətini nəzərə alaraq hüquqi lüğətlərin hazırlanması və müqayisəsi hüquqi analizin həyata keçirilməsinin əhəmiyyəti vurğulanmalıdır.

## III. TÜRKPA ÜZV ÖLKƏLƏRİN TƏCRÜBƏSİ

7. Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyası çərçivəsində qanunvericiliyin uyğunlaşdırılması prosesi aşağıdakı istiqamətlər üzrə həyata keçirilir: a) iştirakçı ölkələrin qanunvericiliyinin yaxınlaşdırılması üzrə tövsiyələrin qəbul edilməsi; b) model qanunvericilik aktlarının qəbul edilməsi və onların müvafiq tövsiyələr vasitəsilə iştirakçı ölkələrin milli parlamentlərinə təqdim edilməsi; c) MDB çərçivəsində iştirakçı ölkələrin milli parlamentləri tərəfindən müqavilələrin təsdiq edilməsi haqqında prosedurlarının sinxronizasiya ilə bağlı tövsiyələrin qəbul edilməsi; d) MDB çərçivəsində iştirakçı ölkələrin milli qanunvericiliyinin bu ölkələrin iştirak etdiyi beynəlxalq müqavilələrə tənzimlənməsi üzrə tövsiyələrin qəbul edilməsi; e) iştirakçı ölkələr arasında hərtərəfli hüquqi informasiya mübadiləsinin asanlaşdırılması.

8. MDB Parlamentlərarası Assambleyasının model qanunları iştirakçı ölkələr üçün milli qanunvericiliyə nümunə kimi təklif olunan Avropa hüquq normalarına adaptasiya olunur. Model qanunvericiliyin formalaşmasında əsas mexanizm MDB PA tərəfindən yaradılan və iştirakçı ölkələrin mütəxəssislərindən ibarət ixtisaslaşdırılmış komissiyalar tərəfindən həyata keçirilir. Bununla yanaşı, MDB iştirakçı ölkələrin milli qanunvericiliyinin monitorinqini həyata keçirən tədqiqat mərkəzi qurmuşdur.

9. Türkiyə ilə Avropa İttifaqı arasında inteqrasiya prosesi Türk hökuməti və Avropa İqtisadi Birliyi arasında 1963-cü ildə imzalanmış və Türkiyənin AB-nin sələfi olan Avropa İqtisadi Birliyinə qoşulması istiqamətində tərəflər arasında assosiasiya əlaqələri yaratmış Ankara müqaviləsi ilə başlanmışdır. Ankara müqaviləsi xüsusilə iki tərəfi iqtisadi və ticarət məsələlərində daha sıx yaxınlaşdıracaq bir gömrük ittifaqının yaradılmasını nəzərdə tuturdu. Sazişin əsas qurumları AB üzvü dövlətlərin nümayəndələrini və Türkiyə səlahiyyətlilərini bir araya gətirən Assosiasiya Şurası və Türkiyə Böyük Millət Məclisi və Avropa Parlamentinin nümayəndələrini bir araya gətirən Birgə Parlament Komitəsidir. 1995-ci ildə Gömrük İttifaqının yaradılması Türkiyənin ticarət və rəqabət siyasətinin AB standartlarına uyğunlaşdırılmasına töhfə vermişdir. AB tənzimləyici çərçivəsində Türk milli qanunvericiliyin uyğunlaşdırılması *acquis communautaire* adlanır ki, bu proses *acquis-in* (NPAA) qəbul edilməsi üçün milli proqram çərçivəsində həyata keçirilir. Türkiyə Böyük Millət Məclisinin Uyğunlaşma Komissiyası Türk milli qanunvericiliyinin müxtəlif sahələrdə Aİ-nin hüquqi bazası ilə uyğunlaşdırılması prosesinə cəlb olunan əsas ixtisaslaşdırılmış parlament orqanıdır.

## NƏTİCƏLƏR

10. TÜRKPA üzv ölkələr arasında münasibətlərin sürətli inkişafı ümumi hüquqi bazanın formalaşdırılması istiqamətində birgə tədbirlər üçün zəmin yaradır. TÜRKPA platforması çərçivəsində uyğunlaşdırılmış hüquqi baza üzv ölkələr arasında xüsusilə mədəni, humanitar, ticarət və investisiya sahələrində artan əlaqələrin fonunda əməkdaşlığın inkişafına səbəb olardı.

11. Müzakirə olunan məsələ kontekstində, iştirakçı ölkələrin qanunvericilik harmonizasiyası sahəsində beynəlxalq təşkilatların təcrübələrindən faydalanmalarına ehtiyac var. Bu baxımdan, üzv ölkələrin MDB PA və Aİ çərçivəsində təcrübəsi ümumi Avropa hüquq məkanının formalaşması üzrə MDB fəaliyyətlərinin və Aİ-nin təcrübəsinin öyrənilməsi xüsusi maraq doğurur. Burada diqqət məqsəd və vəzifələri TÜRKPA missiyasına bənzər digər regional təşkilatların fəaliyyətinə yetirilməlidir.

12. Aydındır ki, qanunvericiliyin uyğunlaşdırılması ekspertlərin cəlb olunması və bu istiqamətdə gələcək fəaliyyət üçün dəqiq baxış (vizyon) tələb edən uzunmüddətli və tədricən baş verən prosesdir. Belə ki, ekspert görüşlərinin müntəzəm olaraq təşkili üzv ölkələrin milli qanunvericiliyin uyğunlaşdırılmasında Assambleyanın səmərəli fəaliyyətinə mühüm töhfədir. Bütün dörd üzv ölkələr çoxtərəfli əməkdaşlıq institutları çərçivəsində hüququn uyğunlaşdırılması sahəsində ekspert potensialına sahib olduğu üçün ilkin mərhələdə ən yaxşı təcrübələr və informasiya mübadiləsi ən əsas vəzifədir.

13. Seminar iştirakçıları onun yekun sənədində üzv parlamentlərin qanunvericilik fəaliyyəti ilə bağlı məlumat bazasının toplanması üzrə fundamental işlərin aparılması lazım olduğunu vurğulamışlar. Bu istiqamətdə, üzv ölkələrin milli qanunvericiliyi üzrə ümumi TÜRKPA məlumat və ya tədqiqat mərkəzinin yaradılması qanunvericiliyin uyğunlaşdırılması üzrə prioritet sahələrin, bu prosesdə əsas maneələrin müəyyənləşdirilməsi və əlaqədar çağırışların qiymətləndirilməsi sahəsində Assambleyanın işini asanlaşdırmış olardı.

14. TÜRKPA onun komissiyaları çərçivəsində ekspert səviyyəsində məsləhətləşmələr prosesi başlatmışdır ki, bu məsələ ilə bağlı akademik institutları ilə əməkdaşlıq üzv ölkələrin qanunvericiliyin harmonizasiyası perspektivlərinin fundamental araşdırılması və biliklərin zənginləşdirilməsi təmin edəcəkdir. Buna görə də, TÜRKPA tövsiyələr və Assambleyanın digər qərarlarının hazırlanmasında ekspert məsləhətləşmələrində iştirak etmək üçün akademik qurumlarının nümayəndələrini dəvət edə bilər.

15. TÜRKPA millətvəkillərinin vahid qanunvericilik bazasının formalaşmasında, vəzifələrin həyata keçirilməsində və təşkilat tərəfindən görülən bütün tədbirlərin dəstəklənməsində rolu və məsuliyyəti var. Assambleya üzvləri üzv ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığı asanlaşdırmaq və təkmilləşdirmək məqsədilə əlaqələndirilmiş fəaliyyət üçün milli parlamentlərin müvafiq komitələrinin adekvat iştirakını təmin edə bilər.